# Yeni Azərbaycan Partiyasının Zəngilan rayon təşkilatının 31-ci ildönümü münasibətilə tədbir təşkil olunub

**Aprelin 4-də Zəngilan rayonunun Ağalı kəndində Yeni Azərbaycan Partiyasının Zəngilan rayon təşkilatının 31-ci ildönümü münasibətilə "Qəhrəman xalqın şanlı partiyası - YAP" adlı tədbir təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Şəhidlər xiyabanı və Ümummilli Lider Heydər Əliyevin büstü ziyarət olunub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə edilib.

Tədbir Dövlət Himninin səsləndirilməsi, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Sonra Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolunu əks etdirən videoçarx nümayiş olunub.

Rayon təşkilatının sədri Natiq Quluzadə bildirdi ki, Yeni Azərbaycan Partiyası əldə etdiyi uğurları və gələcək hədəfləri ilə xalqımızın birliyini və gücünü təmsil edən rəqibsiz bir siyasi təşkilat olaraq ölkəmizin inkişafı naminə fəaliyyətini hər zaman uğurla davam etdirəcək. O qeyd edib ki, partiya Ulu Öndər Heydər Əliyevin uzaqgörən ideyaları əsasında qurulub və onun əsas prinsipləri milli həmrəylik, dövlətçiliyin möhkəmləndirilməsi, Azərbaycanın müstəqilliyinin qorunmasıdır. Bu ideyaların Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizin hərtərəfli inkişafına əsas yaradıb, gələcək nəsillərə daha güclü, daha firavan bir Azərbaycan təqdim etmək məqsədini həyatımıza gətirib. Sədr əlavə edib ki, rayon təşkilatı YAP-ın ən fəal qollarından biri olaraq partiyanın ideya və məqsədlərini yerli səviyyədə həyata keçirərək uğurlu fəaliyyət qurub. O qeyd edib ki, Zəngilan rayonunun yenidən qurulması və Ağalı kəndinin inkişafı partiyanın uğurlu fəaliyyətinin bariz nümunəsidir.







Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyinin məsul əməkdaşı Ceyhun Həsənov, "Azərbaycan" qəzetinin məsul katibi, tarix üzrə fəlsəfə doktoru Elçin Vəliyev və digərləri çıxış edərək Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, keçdiyi mürəkkəb və şərəfli yoldan söhbət açıblar. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyasının bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atdığı, bu uğurların zirvəsində tarixi Zəfərimizin dayandığı, Ağalı kəndinin bu tədbirə ev sahibliyi etməsinin tarixi əhəmiyyəti də xüsusi vurğulanıb. Onlar, həmçinin rayon təşkilatının yaranmasının 31 illiyi münasibətilə öz səmimi təbriklərini çatdıraraq bu əlamətdar günün əhəmiyyətini qeyd ediblər.

Sonda partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi, eləcə də rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya veteranına və fəalına Fəxri fərman təqdim edilib.

Tədbir Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə yekunlaşıb.

Azərbaycan.- 2025.- 5 aprel (№ 65).- S.8.